# Boks

Qəbələ Olimpiya İdman Kompleksində "Qəbələ" və "Fənərbaxça" idman klublarının boks komandaları arasında yoldaşlıq oyunu keçirilmişdir. Yarışda boksçular 8 çəki dərəcəsində mübarizə aparmışdır. Dəbilqə ilə döyüşən boksçuların görüşündə Rüstəm Musayev Muhammet Ünlünü (52 kq), Hidayət Musayev Hakan Kaynarı (69 kq), Ramil Əhmədov Osman Aydını (75 kq) məğlub etmişdir. Dəbilqəlilərdə yalnız Məhəmmədəli Tahirov Şeyda Kəsərə (91 kq) uduzmuşdur. Dəbilqəsiz boks döyüşlərində isə Ruslan Alıyev Volkan Gökçəkə (60 kq) qalib gəlsə də, sonrakı döyüşlərdə Şahin Həsənov Yakup Şənərə (69 kq), Elvin Qənbərov isə Öndər Şipala (75 kq) məğlub olmuşdur.



Yoldaşlıq görüşünün son qarşılaşması isə daha maraqlı keçmişdir. Belə ki, türk idmançısı əgər o görüşdə qalib gəlsəydi, hesab bərabərləşəcəkdi. Ancaq Rahil Məmmədli Avni Yıldırımı (81 kq) məğlub etmiş və yoldaşlıq görüşü 5:3 hesabı ilə "Qəbələ" klubu komandasının xeyirinə başa çatmışdır.

**Mübariz AĞAYEV,**
**GİI-nin aparıcı məsləhətçisi.**
**Foto S. UMUYEVİNDİR.**

# Özünüzü günvurmadan qoruyun

Artıq isti yay günləri başlamışdır. Havanın hərarətinin bəzən 30-40 dərəcəyə yüksəlməsi müəyyən fəsadlar törədə bilər. Günvurma və zəhərlənmə də bu qəbildəndir. Günəş altında çox durduqda və işlədikdə, qida maddələrindən düzgün və gigyenik qaydalara uyğun istifadə etmədikdə belə hallar baş verə bilər. Uşaqlar və yaşlılar üçün bu daha təhlükəlidir. Həkimlərin araşdırmalarına görə günvurma əlaməti vaxtında aradan qaldırılmazsa daha ağır fəsadlar törədə, hətta ölümlə nəticələnə bilər.

Günvurmanın ilkin əlamətlərini xatırlatmaq istərdik: Şiddətli baş ağrısı, ürək bulanması, qusma və yüksək hərarət. Bu hallar baş verdikdə bədəni sıxan paltarlar dərhal çıxarılmalı, başa soyuq kompres qoyulmalıdır. Qızdırma çox yüksək olduqda yuxarıda göstərilən ilkin yardımlardan sonra xəstə yubadılmadan xəstəxanaya çatdırılaraq həkim nəzarətinə götürülməlidir.

Yay aylarında qida zəhərlənmələrinin qarşısının alınması üçün isti vaxtda tez xarab olmağa meyilli məhsullardan-toyuq, balıq, yumurta, süd və südlü şirniyyatdan, mayonezdən istifadəyə məhdudiyyət qoyulmalıdır.

Belə olduqda, siz sağlamlığınızı tam təmin etmiş olarsınız.

**«Qəbələ».**

# Şahmat

## Oğuzdan qızıl medalla qayıtdı

Qəbələ Şahmat Məktəbinin şagirdi Aydan Sahib qızı Hüseynzadə növbəti idman ilində üçüncü uğuruna imza atmışdır. Belə ki, 2013-cü ilin yanvar ayında Sumqayıt şəhərində keçirilən 3-cü Beynəlxalq həlletmə turnirində gənc şahmatçımız qadınlar arasında I yerə yiyələnərək Diplom və pul mükafatına layiq görülmüşdü. Aprel ayında Respublikamızın paytaxtı Bakı şəhərində təşkil olunmuş daha mötəbər bir yarışda—Şahmat məsələlərinin həlli üzrə 34-cü Azərbaycan çempionatında Aydan yenə də güclü olduğunu göstərdi. Çoxsaylı qadın şahmatçının iştirak etdiyi gərgin mübarizədə Qəbələ məktəblisi III yeri tutaraq Diplom və pul mükafatı qazandı.

Bu günlərdə isə «Təhsil» Respublika İdman Mərkəzi 26 iyun- Silahlı Qüvvələr gününə həsr olunmuş ölkə birinciliyi yarışı keçirmişdir. İyunun 25-dən iyulun 4-dək Oğuz şəhərində davam edən bu yarışda şahmatçımız Aydan Hüseynzadə 16 yaşlı qızlar arasında yenə də hamıdan üstün oldu və I yeri tutaraq Diplom və qızıl medala layiq görüldü.



Gənc şahmatçımızı bu qələbə münasibətilə təbrik edir və ona daha böyük uğurlar arzulayırıq.

**Miri RƏHİMOV.**


## Bütün iş adamlarına, vətəndaşlara!

### "Qəbələ" qəzetinin reklam xidməti sizinlədir

Siz sərfəli müqavilə qiymətləri ilə hər nömrəsi 2.110 nüsxə tirajla çap olunan və rayonun bütün bölgələrində kütləvi tirajla yayılan, muzeylərə, kitabxanalara, Bakı şəhərində ayrı-ayrı xüsusi idarə və müəssisələrə, abunəçilərə göndərilən qəzetin

**reklam xidmətindən istifadə edə bilərsiniz**

Qəzetin səhifələrində övladlarınızın, yaxınlarınızın, dostlarınızın ad günlərini, toy şənliklərini, qeyri-adi günlərini təbrik etmək sizə böyük şərəf və duyğu gətirə bilər.

Qəzetdə ev alqı-satqısı, dəyişdirilməsi, sənədlərin itməsi və ya tapılması, digər məsələlər barədə elanlar da dərc olunur.

**TİCARƏT MÜƏSSİSƏLƏRİ, ŞİRKƏTLƏR!**

Məhsullarınızın satılması, daşınması, bu və ya digər işlərin görülməsi, habelə katirovka sorğularının dərc olunması barədə reklamlar və elanlarla da qəzet sizin xidmətinizdədir.

**İstədiyiniz vaxt buyurun, gəlin, zəng edin:**

**Ünvanımız:** Qəbələ şəhəri, İ. Qutqaşınlı küçəsi, 56.
**Telefonlar:** 5-19-14, 5-15-56, Mob: 050-328-11-42.

## Oxucuların nəzərinə!

### «Qəbələ» qəzetinə

**2013-cü ilin ikinci yarısı üçün abunə yazılışı davam edir.**

**Qəzet ayda dörd dəfə çıxır.**

**Yarımillik abunə qiyməti 15 manatdır.**

*Abunə «Kapitalbank»ın Qəbələ filialındakı hesabına köçürmə və redaksiyada nəqd ödəmə yolu ilə aparılır.*

Hesab № 33080019444900218149. VÖEN 4400103601.

Ünvan: Qəbələ şəhəri, İ. Qutqaşınlı küçəsi, 56.

Telefonlar: (024)20 5-19-14, 5-15-56, mob. (050) 328-11-42.



Redaktor
O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
Məsul növbətçi
M. Ə. Rəhimov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, İ. Qutqaşınlı küçəsi, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AIIB 33080019444900218149
VÖEN: 4400103601
Lisenziya AV № 022611

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2110.